22 Noyabr Azərbaycanda Ədliyyə İşçiləri Günüdür

# Azərbaycan ədliyyəsi müasir çağırışlar çevrəsində

**Böyük tarixi zəfərlər qazanan dövlətimizlə həmahəng inkişaf edən 105 yaşlı Azərbaycan ədliyyəsi müasir dövrün çağırışlarına uyğun şəkildə inkişaf edir. Ədliyyə Nazirliyinin yaranma tarixi Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlıdır.**



Nazirlik öz işinə, ilk növbədə, ədliyyə strukturlarının, məhkəmələrin və istintaq sahələrinin bərpası ilə başlayıb, gərgin fəaliyyət nəticəsində məhkəmə aparatları tədricən bərpa edilib, binalar qaydaya salınıb, çətinliklə də olsa, hüquq ədəbiyyatı kitabxanası yaradılaraq 6 aylıq hüquq kursları təşkil edilib. Eyni zamanda, ədliyyə orqanları və məhkəmələrin fəaliyyəti ilə bağlı bir sıra qərarlar qəbul edilib, o cümlədən 1918-ci il noyabr ayının 14-də Azərbaycan Məhkəmə Palatasının Əsasnaməsi, noyabrın 22-də isə Ədliyyə Nazirliyinin Əsasnaməsi təsdiq edilib.

Lakin çox təəssüflər olsun ki, bolşeviklərin işğalı nəticəsində AXC süqut edib. Bundan sonra Azərbaycan ədliyyəsinin Sovet dövrü başlayıb. Belə ki, İnqilab Komitəsinin 13 may 1920-ci il tarixli qərarı ilə Ədliyyə Nazirliyi ləğv edilib, Xalq Ədliyyə Komissarlığı yaradılaraq, onun səlahiyyətlərinə qanunvericilik layihələrinin hazırlanması, məhkəmə işçilərinin seçilməsi, təlimatlandırılması və onlara inzibati rəhbərlik edilməsi, qanunçuluğa ali nəzarət və istintaqın aparılması daxil edilib. Lakin 1930-cu ildə bu komissarlıq ləğv edilərək, onun funksiyaları prokurorluq, Ali Məhkəmə, Mərkəzi İcraiyyə Komitəsinə və digər orqanlara verilib...

Sovet dövrü Azərbaycan ədliyyəsinin əsas inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ədliyyə Nazirliyinin yenidən yaradılması Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövrünə təsadüf edir. Belə ki, 27 oktyabr 1970-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Ədliyyə Nazirliyi təsis edildi və bununla da Azərbaycan ədliyyəsi tarixində yeni mərhələ başlandı. Bu da həmin dövrdə Ədliyyə Nazirliyi sisteminə daxil olan bütün sahələrin yenidən qurulmasına, təkmilləşməsinə, inkişafına səbəb oldu.

1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev ədliyyə sahəsinə də xüsusi diqqət göstərib. Ümummilli liderin 2000-ci il 11 noyabr tarixli Sərəncamı ilə 1918-ci ildə Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edildiyi tarix – 22 noyabr ədliyyə işçilərinin peşə bayramı günü təsis olunub. Neçə illərdir ki, ədliyyə işçiləri 22 noyabrı öz peşə bayramları olaraq qeyd edirlər.

Prezident İlham Əliyevin rəhbərliyi dövründə də ədliyyə sahəsinə diqqət və qayğı siyasəti davam etdirilib. Azərbaycan Prezidenti daim bu sahəni diqqətdə saxlayır. Ədliyyə Akademiyasının yaradılması bilavasitə Prezident İlham Əliyevin adı ilə bağlıdır.

"Ədliyyə orqanlarının inkişafı haqqında" Azərbaycan Respublikası Prezidentinin 17 avqust 2006-cı il tarixli Fərmanı ilə Ədliyyə Nazirliyinin strukturu daxilində Ədliyyə Akademiyası yaradılmışdır. 2008-ci il 21 noyabr tarixli fərmanla Ədliyyə Akademiyasının nizamnaməsi təsdiq edilmişdir.

Prezident İlham Əliyevin 2018-ci il dekabrın 18-də təsdiq etdiyi "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019–2023-cü illər üzrə" Dövlət Proqramı ilə ədliyyə və məhkəmə sisteminin inkişafı üçün 5 il ərzində yeni hədəflər müəyyən olunmuşdu.

Prezidentin 2019-cu il aprelin 3-də imzaladığı fərmanla Azərbaycanda məhkəmə islahatları müasir çağırışlara uyğun olaraq yeni mərhələyə keçid edib. Həmin sənədin icrası çərçivəsində qısa müddətdə bu sahədə nəhəng işlər görülmüş, institutsional tədbirlər çərçivəsində 13 regional məhkəmə, o cümlədən bölgələrdə ayrıca inzibati və kommersiya məhkəmələri yaradılmış, özəl ekspertiza təsbit olunmuş, mediasiya institutu fəaliyyətə başlamışdır.

İslahatlar daxilində artıq Mülki-Prosessual Məcəlləyə 350-dək dəyişikliklər edilib, o cümlədən sadələşdirilib və yazılı icraat genişləndirilib. Məhkəmə proseslərində videokonfrans və elektron icraat tətbiq edilməkdədir. Məhkəmə rüsumlarının diferensiasiyasının tətbiqi də diqqət çəkən faktlardandır.

2020-ci il Azərbaycan dövləti üçün şanlı qələbə ili oldu və ölkəmizdə uzun illər ərzində formalaşmış möhkəm ictimai-siyasi və sosial-iqtisadi bünövrə, tarixi torpaqlarımızın işğaldan azad edilməsi qarşıdakı illərdə sistemli və davamlı islahatlara əlavə imkanlar yaratdı. Müasir dövrdə islahatlar qabaqcıl texnologiyalar tətbiq edilməklə həyata keçirilir, müxtəlif sahələrdə, o cümlədən də ədliyyə sahəsində rəqəmsal xidmətlər mövcuddur.

Ədliyyə və məhkəmə sahəsi də müasir informasiya texnologiyalarının tətbiqi ilə inkişaf edir və mütərəqqi islahatlar aparılır. Bu gün Ədliyyə Nazirliyi "Elektron hökumət" sisteminin fəal iştirakçısıdır. Nazirlik tərəfindən aparılan və on minlərlə normativ sənədi ehtiva edən Hüquqi aktların vahid elektron bazası vasitəsilə hər kəs ödənişsiz olaraq, ani rejimdə qanunvericilik aktlarını əldə edə bilir. Eyni zamanda, "Elektron notariat" innovasiyaların tətbiqi üçün geniş imkanlar açıb. Həmçinin rəqəmsallaşdırmanın yeni mərhələsi olaraq "Mobil notariat" tətbiqi yaradılıb. Onun istifadəçiləri notariat ofisinə getmədən videoəlaqə mkanına malikdirlər. Ədliyyənin elektron reyestrlərinə digər dövlət orqanlarının da inteqrasiyası vətəndaş məmnunluğuna əlavə şərait yaradıb. Böyük sosial əhəmiyyətə malik olan DOST mərkəzlərində göstərilən notariat xidməti, burada yaradılmış elektron notariat kabinetləri vasitəsilə vətəndaşlar notariusla dərhal video-əlaqə saxlayaraq, notariat əməliyyatını həyata keçirə bilirlər. Biznes mühitinin yaxşılaşdırılması məqsədilə analoji xidmətlər banklarda da yaradılıb. Bütün bunlar Azərbaycan ədliyyəsinin son illərdə əldə etdiyi nailiyyətlərin qısa nümunələridir.

***Nicat MİRZƏYEV,***
***Ədliyyə Nazirliyi Məhkəmə Ekspertiza Mərkəzi ballistik və trasaloji ekspertizalar şöbəsinin aparıcı eksperti, 1-ci dərəcəli ədliyyə qulluqçusu***